| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 24.06.2023 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 930-VIQD |
| **ADI** | Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 28.07.2023, Nəşr nömrəsi: 157), Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı (Dərc olunma tarixi: 27.07.2023) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.02.2024 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | null |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 28.07.2023 |

**Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 9, maddə 787; 2014, 10, maddə 1155, 11, maddə 1368; 2016, 11, maddə 1791; 2017, 3, maddə 339, 7, maddə 1303, 8, maddə 1510; 2018, 1, maddə 30, 11, maddə 2211, 12 (I kitab), maddə 2521; 2019, 1, maddə 30, 5, maddə 814, 8, maddə 1383; 2020, 5, maddə 522, 7, maddə 832, 12 (I kitab), maddə 1438; 2021, 11, maddə 1204, 12, maddə 1315; 2022, 12, maddə 1386; 2023, 1, maddə 33, 2, maddə 210, 3, maddə 335) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 224.1-ci maddənin birinci abzasına "Dövlət rüsumu haqqında" sözlərindən sonra ", "Tullantılar haqqında" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 233-1-ci maddə əlavə edilsin:

"Maddə 233-1. Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqı

Gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi zamanı "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə utilizasiya haqqı alınır.".

**Maddə 2.** Bu Qanun 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2023-cü il
930-VIQD